# Azərbaycan-Litva: dost və strateji tərəfdaşlar




## Əməkdaşlıq münasibətlərində yeni müsbət dinamika

(əvvəli 1-ci səhifədə)

Azərbaycan ilə Litva arasında ikitərəfli münasibətlər dinamik inkişaf etməkdədir. Son illərdə iki dövlət arasında siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələr uğurla inkişaf edir və nəzərəçarpacaq dərəcədə fəallaşır. Litva Respublikası Prezidenti Valdas Adamkusun 8-9 iyun 2006-cı il tarixlərində Azərbaycana rəsmi səfəri zamanı "Azərbaycan Respublikası Prezidenti və Litva Respublikası Prezidentinin Birgə Bəyannaməsi" imzalanıb. 2007-ci il sentyabr ayının 13-də Azərbaycan Prezidenti İlham Əliyev Litvaya ilk dəfə rəsmi səfər etmişdir. Səfər çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirilmiş, danışıqlar aparılmış, rəsmi sənədlərin imzalanma mərasimi olmuşdur. İmzalanan sənədlərdən ən mühümü "Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında" birgə bəyannaməsi idi. Ölkələrimiz arasında imzalanmış sənədlər Azərbaycan-Litva əlaqələrinin daha da inkişaf etdirilməsinə zəmin yaradan və bu münasibətlərə təkan verən hüquqi bazaya çevrilmişdir. Hələ o vaxt dövlət başçılarının geniş tərkibdə görüşündə Prezident İlham Əliyev demişdir: "Biz Litva ilə münasibətlərə böyük əhəmiyyət veririk və bu münasibətlər son vaxtlar xeyli inkişaf etmişdir. Litva və Azərbaycan vahid mövqelərdən çıxış edirlər, ölkələrimiz arasında heç bir problem yoxdur və əlaqələrimiz yüksələn xətlə inkişaf edəcəkdir". Ölkə başçısının uzaqgörən siyasi baxışları bu gün bir daha öz təsdiqini tapır.

2007-ci ildə Litvaya rəsmi səfəri zamanı ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin bugünkü formatda inkişafı üçün əlverişli zəmin yaradılmışdı. Litva Respublikasının Prezidenti Gitanas Nausedanın ötən il may ayının 18-də Azərbaycana rəsmi səfəri iki ölkənin iqtisadi, mədəni, siyasi və sosial əlaqələrini yenidən canlandırmaq, bu əlaqələri daha fəal əməkdaşlığa çevirmək xarakteri daşıyırdı. Siyasi münasibətlərə, strateji tərəfdaşlığa malik iki ölkə arasında xüsusilə iqtisadi əməkdaşlıq məsələlərinin müzakirəsi ön planda idi. Azərbaycan-Litva biznes forumunun açılışı da iqtisadi sektorda əməkdaşlığın gücləndirilməsinin mümkünlüyünü özündə ehtiva edirdi və tərəflər arasında mühüm sənədlərin imzalanması kənd təsərrüfatı, turizm, enerji, bərpaolunan enerji mənbələri, nəqliyyat kimi sahələrdə sağlam, faydalı işbirliyinə yeni imkanların yaranması, daha fəal əməkdaşlığın təməlinin atılması demək idi.

Dövlət başçısının səfəri zamanı hər iki ölkənin prezidentlərinin qatıldığı biznes forumda Azərbaycan və Litvadan kifayət qədər iş adamının iştirak etməsi belə deməyə əsas verir ki, bu səfər və keçirilən görüşlər iqtisadiyyatın ayrı-ayrı istiqamətləri üzrə əlaqələr üçün real imkanlar, eyni zamanda Bakı ilə Vilnüs arasında iqtisadi sahədə əlaqələrin inkişafında müsbət dinamika yaradacaq. Bundan başqa, nəqliyyat-tranzit sahəsində də səmərəli əməkdaşlıq üçün kifayət qədər imkanlar vardır. Prezident İlham Əliyevin də səfər zaman litvalı həmkarı ilə görüşündə qeyd etdiyi kimi, Xəzər dənizinin Cənubi Qafqazı Baltik dənizi ölkələri ilə birləşdirən nəqliyyat marşrutları da var. Sadəcə olaraq, daha səmərəli addımlar atmaqla bu sahədə uğurlu əməkdaşlığa nail olmaq mümkündür.

Ölkə başçısı həm də Cənubi Qafqazdakı vəziyyətlə bağlı Litva Prezidentini məlumatlandırdı. Bu da çox əhəmiyyətlidir. Çünki Prezident İlham Əliyev bütün platformalarda ölkəmizin haqlı mövqeyini əsaslandırır. Son səfər çərçivəsində Litva rəsmiləri də Azərbaycanın sülhün əsas təşəbbüskarı olmasını təqdir edirlər. Bu da ölkəmizin kifayət qədər güclü olan siyasi mövqeyini daha da möhkəmləndirir. Azərbaycan Prezidenti İlham Əliyevin Litva Respublikasının Baş naziri xanım İnqrida Şimonite ilə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsinin aparıldığı görüşdə bu sahədə böyük potensialın olduğu vurğulandı. Xüsusilə investisiyalar, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Azərbaycanla Litva arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Vilnüs həm də Bakının Avropa İttifaqı ilə əlaqələrinin inkişafında mühüm faktor rolunu oynayır. Belə ki, Azərbaycanı etibarlı tərəfdaş kimi görən Avropa İttifaqının doqquz üzv ölkəsi Azərbaycan Respublikası ilə strateji əməkdaşlıq müqaviləsi bağlamışdır. Azərbaycanda nəqliyyat şəbəkəsinin şaxələndirilmiş zənciri yaradılıb. Müasir infrastruktur - dəniz limanı, dəmir yolu bağlantıları, bir neçə beynəlxalq hava limanı, avtomobil yolları mövcuddur. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzərində yerləşir, yeni önəmli nəqliyyat mərkəzinə çevrilib. Avropanın etibarlı təchizatçısı kimi Azərbaycan bu gün neft, təbii qaz və elektrik enerjisini ixrac edir. Hidrogeni, o cümlədən yaşıl hidrogeni ixrac etməyi planlaşdırır.

"Prezident İlham Əliyevin səfəri Azərbaycan ilə Litva arasında əməkdaşlıq münasibətlərinə yeni müsbət dinamika əlavə edəcək". Bu fikri Litva Prezidenti Gitanas Nauseda mayın 22-də Vilnüsdə mətbuata bəyanatında bildirib. Bir il əvvəl Azərbaycana səfəri çərçivəsində ikitərəfli əməkdaşlıq, o cümlədən iqtisadiyyat və təhsil sahələrində əlaqələrimizin gücləndirilməsi barədə əhəmiyyətli müzakirələrin aparıldığını vurğulayan Litva Prezidenti qeyd edib ki, ətraf mühit, gənclər və hüquq-mühafizə sahələrində Litva ilə Azərbaycan arasında əməkdaşlıq haqqında sazişlər imzalandı. Bu, ikitərəfli münasibətlərimizin inkişafına mühüm təkan verəcəkdir.

**Mustafa KAMAL,**
**"Respublika".**